**UOT** 349.3

**Mayis ƏLİYEV**
*Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının professoru, hüquq üzrə elmlər doktoru*
*aliyev.mayis@mail.ru*

**Fəridə ƏLİYEVA**
*Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının müəllimi*
*farida.aliyeva00@gmail.com*

DOI: https://doi.org/10.62130/PPKA1889

# PENSİYA TƏMİNATI SİSTEMİNİN HÜQUQİ TƏNZİMİNİN BƏZİ ASPEKTLƏRİ

**XÜLASƏ**

*Azərbaycan Respublikasında qəbul edilmiş yeni pensiya islahatı konsepsiyasına əsaslanan məqalədə pensiya təminatı sahəsində qanunvericiliyin təkmilləşdirilməsinin əsasları araşdırılır. Müasir dövrdə respublikamızda pensiya təminatının daha da təkmilləşdirilməsi və onun hüquqi tənzimlənməsi ölkəmizdə bu sahədə aparılan islahatların nəticələrindən, əhalinin sosial-iqtisadi inkişafına uyğun olaraq pensiya təminatı üçün maliyyə imkanlarının formalaşdırılmasından asılıdır.*

***Açar sözlər:*** *pensiya təminatı, yaşa görə əmək pensiyası, sosial sığorta, nəsillərin həmrəyliyi, könüllü sosial sığorta*

Müasir dövrdə respublikamızda pensiya təminatının daha da təkmilləşdirilməsi və onun hüquqi cəhətdən tənzimlənməsi ölkəmizdə bu sahədə aparılan islahatların nəticəsindən, ölkənin sosial-iqtisadi inkişafına uyğun olaraq pensiya təminatının maliyyə imkanlarının formalaşdırılmasından asılıdır. Bu asılılıq təkcə bizim ölkə üçün deyil, istənilən hər bir ölkə üçün xarakterikdir. Təsadüfi deyildir ki, XX əsrin sonlarından başlayaraq dünya ölkələrinin əksəriyyətində pensiya təminatı sistemində ciddi islahatlar aparılır. Fikrimizcə, pensiya təminatı sistemində islahatların aparılmasının əhəmiyyəti Dünya Bankının eksperti Estel Ceyms tərəfindən daha dəqiq ifadə olunmuşdur. O göstərir ki, yaxın 35 il ərzində dünya əhalisinin tərkibində 60 yaşdan yuxarı olanların xüsusi çəkisi 2 dəfə, yəni 9 faizdən 16 faizə qədər artacaqdır. İnkişaf etmiş ölkələrlə müqayisədə inkişaf etməkdə olan ölkələrdə orta ömür müddətinin uzanması və doğumun aşağı düşməsi nəticəsində əhalinin qocalma prosesi daha sürətlə artır. Təxminən 2030-cu ildə həmin ölkələrdə planetdəki yaşlı əhalinin 80 faizə qədərinin pensiya yaşına yaxınlaşan əmək qabiliyyətli şəxslərin olması gözlənilir. Bu ölkələr pensiya təminatı sistemlərini yenidən qurmağa məcburdurlar və əhali qocalmasının yüksək sürətini nəzərə alaraq prosesin başlanğıcdan düzgün qiymətləndirilməsi vacibdir. İnkişaf etmiş ölkələr isə mövcud sistemi islah etməklə onun daha dayanıqlı olmasına və daha az xərc tələb etməsinə cəhd göstərirlər. Çünki pensiya "çox geniş və kütləvi təminat növü" kimi xarakterizə olunur [5, s.37]. Təsadüfi deyildir ki, əhalinin tərkibində pensiyaçıların xüsusi Fransa Respublikasında 22,8% (14,9 mln nəfər) [8], Almaniya Federativ Respublikasında 30,7% (25,5 mln nəfər) [9], Belarus Respublikasında 26,9 % (2,5 mln nəfər), Moldova Respublikasında 20,0% (0,7 mln nəfər), Rusiya Federa-

siyasında 29,4% (43,0 mln nəfər), Ukraynada 25,6% (10,5 mln nəfər), Qazaxıstan Respublikasında 15,3% (2,9 mln nəfər), Qırğızıstan Respublikasında 11,9% (0,8 mln nəfər), Tacikistan Respublikasında 7,2% (0,7 mln nəfər), Özbəkistan Respublikasında 11,2%, (3,9 mln nəfər), Gürcüstan Respublikasında 21,6% (0,8 mln nəfər), Azərbaycan Respublikasında isə 10,8% (1,09 mln nəfər) təşkil edir [1].

2023-cü il üzrə respublikamızda pensiyaçıların sayı 18 min 200 nəfər azalıb. Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, bu ilin yanvarın ilk gününə 1 milyon 96 min pensiyaçı qeydiyyatdan keçib. Bu əhalinin 10.8 faizi pensiyaçı olması deməkdir. Onların 64,0 faizi yaşa, 23,6 faizi əlilliyə, 12,4 faizi isə ailə başçısını itirməyə görə pensiya alır. Pensiyaçıların sayının azalması səbəblərini müəyyənləşdirmək üçün pensiyaçıların strukturundakı dəyişikliklərə diqqət yetirmək lazımdır. DSK-nin Dövlət Sosial Müdafiə Fonduna istinadən paylaşdığı sonuncu məlumatda struktur üzrə dəyişiklik qeyd olunmasa da digər mənbələrin statistikası ilə bu müqayisənin aparılması mümkündür. Belə ki, 2022-cü ilin yekunlarında yaşa görə pensiya alanların sayı 696 min 375 nəfər olub. 2024-cü ilin yanvarın 1-də isə bu rəqəm 701 min 440 nəfər olub. Deməli, pensiya yaşı tamam olaraq pensiyaya çıxanların sayında azalma yoxdur. Əksinə, yaşa görə pensiya alanların sayı 5 min 65 nəfər artıb. Ötən ilin yekunlarında əlilliyə görə pensiya alanların sayı 258 min 656 nəfər olub. 2022-cü ilin sonuncu günü isə ölkədə 272 min 979 nəfər əlilliyə görə pensiya alıb. Bu isə o deməkdir ki, ötən il ərzində əlilliyə görə pensiya alanların sayı 14 min 323 nəfər azalıb.

Ailə başçısının itirilməsinə görə pensiya alanların sayı isə bu ilin ilk gününə 135 min 904 nəfər olub. Bir il öncə bu rəqəm 144 min 846 nəfər idi. Deməli, ailə başçısının itirilməsinə görə pensiya alanların sayı ötən il ərzində 8 min 942 nəfər azalıb. Bütövlükdə, əlilliyə və ailə başçısının itirilməsinə görə pensiya alanların sayı ötən il ərzində 23 min 265 nəfər azalıb.

Bu statistik təhlil göstərir ki, yaşa görə pensiya alanların sayında artımın olmasına baxmayaraq digər iki əmək pensiyası üzrə azalma ümumi pensiya alanların sayını azaldıb. Ötən il ərzində əlilliyə və ailə başçısının itirilməsinə görə pensiya alanların sayındakı 23 min 265 nəfər azalma yaşa görə pensiyaçıların sayındakı 5 min 65 nəfər artımın fərqi 18 min 200 nəfər ümumi azalma ilə nəticələnib [10].

Göstərilən bu hallar Azərbaycan Respublikasında yeni pensiya islahatı konsepsiyasının qəbul edilməsini, əlilliyə və ailə başçısının itirilməsinə görə pensiya təminatı sahəsində qanunverciliyin daha da təkmilləşdirilməsinə zərurətin yarandığını göstərir.

Təsadüfi deyildir ki, bir sıra inkişaf etmiş ölkələrdə pensiya xərcləri ümumi daxili məhsulun 15 faizini ötmüş və son illərdə demoqrafik prosesdə dəyişikliklər nəticəsində bir çox ölkələrdə də pensiya xərclərinin səviyyəsi xeyli artmışdır. Bu isə öz növbəsində pensiya təminatına yenidən baxılmasını, bu sahədə müvafiq islahatlar aparılmasını tələb edir [2, s.245].

Bu baxımdan pensiya təminatı sahəsində aparılan islahatları nəzərdən keçirməyə ehtiyac vardır. Pensiya təminatı sahəsində aparılan islahatları 2 qrupa - cüzi dəyişikliklərlə aparılan islahatlara və əsaslı islahatlara bölmək mümkündür. Cüzi dəyişikliklərlə aparılan islahatlara mövcud dövlət pensiya sistemində edilən dəyişikliklər aiddir. Onun əsas məqsədi maliyyə probleminin qismən həll edilməsindən, bir sıra hallarda isə qanunvericilikdə mövcud olan ədalətsizlikləri aradan qaldırmaqdan ibarətdir. Bu sahədə qarşıya qoyulan məsələlər müxtəlif formalarda həll edilir. Dövlət bu məsələləri pensiya almaq hüququ verən meyarları, sığorta haqlarının məbləğini, pensiyaların hesablanması, ödənişi, təyin olunma qaydalarını dəyişməklə və ya bir sıra digər tədbirləri həyata keçirməklə həll edir. Əksər hallarda bu cür islahatlar dövlət pensiya sistemində mövcud olan problemləri həll etməyə yetərli olmur, lakin maliyyə böhranının müəyyən müddətə aradan qaldırılmasına və ya onun təsirinin azaldılmasına imkan verir.

Əsaslı islahatlar zamanı isə pensiya təminatı sistemində ciddi dəyişikliklər baş verir. Ödənişlərin müəyyən edilmiş sxemləri sığorta haqları-

nın müəyyən edilmiş mexanizmləri ilə, yaxud da həmrəylik sistemi yığım sistemi ilə əvəz edilir (və ya əksinə). Yeni sistemin "sıfırdan" başlayaraq yaradılması da bu kateqoriyaya aiddir. Ona görə ki, bu halda da əvvəllər mövcud olmuş qaydalar əsaslı şəkildə dəyişdirilir. Məcburi sosial sığorta haqları elementləri də daxil edilməklə həmrəylik sisteminin ciddi dəyişikliklərə uğraması və ya geniş miqyasda yenidən qurulması əsaslı islahatlara daxildir.

Pensiya təminatında islahatlar bir çox ölkələrdə həyata keçirilsə də, onların yalnız 25 faizi əsaslı islahat adlana bilər. Onların üçdən biri yığım sistemindən həmrəylik sisteminə keçir, yaxud da yeni həmrəylik sistemi tətbiq edirlər. Digər islahatların böyük əksəriyyəti isə mövcud həmrəylik sisteminin kosmetik dəyişilməsi yolu ilə aparılır. Bu baxımdan ölkəmizin pensiya təminatı sistemində indiyə qədər aparılan islahatları kosmetik islahatlar qrupuna aid etmək olar. Lakin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədar ölkənin pensiya təminatının həmrəylik sistemində yığım sisteminin elementləri də tətbiq edilməyə başlanılmış və pensiya təminatı sisteminin qarışıq formada qurulması prosesi həyata keçirilməkdədir. Beləliklə, ölkənin pensiya təminatı sistemində 2006-cı ildən etibarən aparılan islahatları əsaslı islahat kimi xarakterizə etmək mümkündür.

Göstərmək lazımdır ki, pensiya sistemlərinin ənənəvi bölgü növü (nəsillərin həmrəyliyi sistemi) pensiya vəsaitlərinin konkret şəxslər arasında bölüşdürülməsi əsasında fəaliyyət göstərir. Bu halda fərdi məlumatların qeydiyyatı və yığım prinsipial əhəmiyyət daşımır. Nəsillərin həmrəyliyi prinsipinə əsaslanan pensiya təminatı sistemlərində işəgötürənlərin və işçilərin ödədikləri məcburi dövlət sosial sığorta haqları toplanılmaqla pensiya almaq hüququ olan şəxslərin müraciətləri təmin edilir. Beləliklə, nəsillərin həmrəyliyi prinsipinə əsaslanan pensiya təminatı sisteminin fərdi uçot sistemi olmadan da fəaliyyət göstərməsi mümkündür. Məhz buna görə bir çox ölkələrin pensiya təminatında fərdi uçot sistemi tətbiq olunmur. Lakin həmin pensiya təminatı sistemlərində də fərdi uçotun tətbiq edilməsi məcburi dövlət sosial sığorta haqlarının tam şəkildə toplanılmasına, pensiya təminatının maliyyə mənbəyinin yaxşılaşdırılmasına müsbət təsir göstərir.

Ölkəmizin pensiya təminatı da uzun illər fərdi uçot sistemi olmadan fəaliyyət göstərmişdir və yuxarıda qeyd edildiyi kimi, istər işəgötürənlərdən və işçilərdən ayırmaların toplanmasında, istərsə də pensiyaların qanunvericiliyə əsasən düzgün tətbiq edilməsində bir sıra ciddi problemlər mövcud olmuşdur. Göstərmək lazımdır ki, ölkədə aparılan iqtisadi islahatlarla əlaqədar məşğul əhalinin tərkibində qeyri-dövlət (özəl) sektorunda çalışanların sayı son illərdə xeyli artmışdır. Pensiya təyinatı zamanı həmin dövr məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi barədə təqdim olunan arayışlar əsasında müəyyən edilir. Vətəndaşın çalışdığı özəl müəssisə fəaliyyətini dayandırdıqda isə göstərilən arayışların əldə olunması ciddi çətinlik yaradır ki, bu da onların haqlı narazılığı ilə nəticələnir. Belə halın mövcudluğu isə pensiya təminatının fərdi uçot sisteminə əsaslanmasının zəruriliyini bir daha təsdiqləyir. Fərdi uçot sisteminin tətbiqi pensiya qanunvericiliyinin düzgün tətbiqi zamanı sui-istifadə hallarının qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir.

Göstərmək lazımdır ki, ölkəmizdə hazırda artıq bazar iqtisadiyyatı münasibətləri formalaşmışdır. İqtisadi ədəbiyyatlarda isə bazar iqtisadiyyatının iqtisadi modelləri öz mahiyyətlərinə əsasən üç növə ayrılır:

1. Liberal bazar iqtisadiyyatı modeli;
2. Sosialyönümlü bazar iqtisadiyyatı modeli;
3. Sosial-demokrat bazar iqtisadiyyatı modeli [4, s.49].

Ölkəmizin bu modellərdən hansına üstünlük verməsini akademik A.A.Nadirov daha dəqiq ifadə edə bilmişdir: "Bu mürəkkəb şəraiti və gerçəklikləri, habelə milli ənənə və həyat tərzimizin xüsusiyyətlərini də nəzərə almaqla bazar münasibətlərinə keçilməsinin hər cür liberallaşdırma və əsassız sıçrayış yolu ilə deyil, bütün mövqelərdən bizə daha çox uyğun gələn və bir çox qabaqcıl ölkələrin təcrübəsində özünü doğ-

rultmuş müxtəlif mülkiyyət formalarına əsaslanan sosialyönümlü bazar iqtisadiyyatı yolunu seçməliyik" [7, s.58]. Ölkə iqtisadiyyatı akademikin göstərdiyi kimi, sosial yönümlü bazar iqtisadiyyatı modelinə əsaslanır. Bu model digər modellərdən insan amilinə üstünlük verilməsi, insanların sosial müdafiəsinə daha çox diqqət yetirməsi ilə fərqlənir. İnsanların qazanmış olduqları hüquqlarının realizə olunmasını təmin etmək məqsədilə Pensiya Təminatı Məcəlləsi işlənilib hazırlanarkən şəxsin hüquq qazandığı bütün növ pensiyalarla təmin edilməsinin mümkünlüyü barədə xüsusi norma nəzərdə tutulması məqsədəuyğun olardı.

Məcburi dövlət sosial sığorta haqları hesabına toplanan vəsait isə yalnız pensiyaların maliyyələşdirilməsinə yönəldilməlidir. Qanunda nəzərdə tutulan digər tədbirlər isə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməli, buna müvafiq olaraq Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu Azərbaycan Respublikasının Pensiya Fondu statusunda fəaliyyət göstərməlidir.

Hazırda Azərbaycan Respublikasında pensiya münasibətləri "Əmək pensiyaları haqqında" 7 fevral 2006-cı il tarixli Qanunla tənzimlənir və həmin Qanuna görə pensiyanın yalnız bir növü – əmək pensiyası növü fərqləndirilir [3]. Əmək pensiyasının leqal anlayışı isə "Əmək pensiyaları haqqında" Qanunun 1-ci maddəsində verilmişdir. Bu maddəyə görə əmək pensiyası həmin Qanunla nəzərdə tutulmuş qayda və şərtlərlə müəyyən edilən və məcburi dövlət sosial sığorta olunan şəxslərin onlara əmək pensiyası təyin olunduqdan əvvəl aldıqları əmək haqqı və digər gəlirlərin, yaxud sığorta olunan şəxslərin ölümü ilə əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədilə vətəndaşlara aylıq verilən pul ödənişidir. Göstərmək lazımdır ki, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanunu Azərbaycan Respublikası vətəndaşları ilə yanaşı ölkə ərazisində daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin də əmək pensiyası hüququnu müəyyən etmişdir. Bu baxımdan əmək pensiyasının anlayışında göstərilən "vətəndaşlara" sözünün "şəxslərə" sözü ilə əvəz edilməsi məqsədəmüvafiq olardı.

Beləliklə, Azərbaycan Respublikasında yeni pensiya islahatı konsepsiyasının qəbul edilməsini, əlilliyə və ailə başçısının itirilməsinə görə pensiya təminatı sahəsində qanunverciliyin daha da təkmilləşdirilməsini aktuallaşdırır.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycanda səhiyyə, sosial müdafiə və mənzil şəraiti (statistik məcmuə). Bakı: Narıncı nəşriyyat evi, 2022, 404 s.
2. Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma: Monoqrafiya. Bakı: CBS Poluqraphic Production, 2006, 632 s.
3. "Əmək pensiyaları haqqında" AR Qanunu//e-qanun.az
4. Əliyev M.N. Azərbaycan Respublikasında pensiya təminatı sisteminin təşəkkülü və inkişaf perspektivləri (hüquqi problemlər): Monaqrafiya. Bakı: Bakı Universiteti nəşriyyatı, 2003, 432 s.
5. Андреев В.С. Право социального обеспечения в СССР: Учебник. М.: Юрид. лит., 1987, 312 с.
6. Астрахан Е.И. Некоторые вопросы пенсионного правоотношения по советскому трудовому праву // Ученые записки ВНИИСЗ, 1962, вып. 14, с.150-163
7. Кауфман А.А. Право социального обеспечения в схемах и определениях. Учебное пособие. М.: Проспект, 2012, 80 с.
8. Количество пенсионеров во Франции, alicape.fr/ru/количество-пенсий-во-Франции
9. Пенсии в Германии в 2022,2021 году:пенсионный возраст, виды пенсий, стаж работы, оформление пенсии. ru.qeld.de/pension/
10.https://news24.az/119488-pensiyachilarin-sayi-niye-azalib.html

**Маис АЛИЕВ**
**Фарида АЛИЕВА**

## НЕКОТОРЫЕ АСПЕКТЫ ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ СИСТЕМЫ ПЕНСИОННОГО ОБЕСПЕЧЕНИЯ

### РЕЗЮМЕ

В статье на основе новой концепции пенсионной реформы, принятой в Азербайджанской Республике рассматриваются основы совершенствования законодательства в области пенсионного обеспечения. Дальнейшее совершенствование пенсионного обеспечения в нашей республике и его правовое регулирование в современный период зависит от результатов проводимых в нашей стране реформ в этой сфере, формирования финансовых возможностей пенсионного обеспечения в соответствии с социально-экономическим развитием страны.

***Ключевые слова:*** пенсионное обеспечение, трудовая пенсия по возрасту, социальное страхование, солидарность поколений, добровольное социальное страхование

**Mais ALİEV**
**Farida ALİEVA**

## SOME ASPECTS OF THE LEGAL REGULATİON OF THE PENSİON SYSTEM

### SUMMARY

Based on the new concept of pension reform adopted in the Republic of Azerbaijan, the article examines the basics of improving legislation in the field of pension provision. Further improvement of pension provision in our republic and its legal regulation in the modern period depends on the results of the reforms carried out in our country in this area, the formation of financial opportunities for pension provision in accordance with the socio-economic development of the country.

***Keywords:*** pension provision, old-age pension, social insurance, solidarity of generations, voluntary social insurance